Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Yaxşı Padşahlar, Pis Padşahlar

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Menaşşe üçün kədərli bir gün idi. Onun atası Xizqiya yenicə ölmüşdü. İndi yalnız on iki yaşı olan Menaşşe Yəhudada Allahın xalqı üzərində yeni padşah idi. O vaxt o, bunu bilmirdi, ancaq Menaşşe 55 il padşah olacaqdı. Yaxşı padşah olmaq üçün Menaşşenin Allahın köməyinə ehtiyacı var idi.



Ancaq Menaşşe Allahı rədd etdi və pis işlər gördü.  Menaşşe yenidən bütlərə qurbangahlar tikdi.  O, hətta oyma büt düzəltdi və onu Allahın müqəddəs məbədinə qoydu!  Allah Musa vasitəsilə demişdi: “Özünə oyma büt düzəltmə. Belə şeylərə səcdə qılaraq ibadət etmə”.



Menaşşe cadugərlik
və sehrbazlıqla məşğul
olurdu.  O, xalqı Allahdan
uzaqlaşdırdı.  Padşah hətta
öz oğlunu oda qurban
verdi.  Menaşşenin
itaətsizliyi Allahı
çox qəzəbləndirdi.



Allahın xalqı itaət etməyəndə Allah onların cəzalandırılmasına izin verir. Menaşşe və onun hökmranlıq etdiyi xalqla da belə oldu. Rəbb Aşşur ordusunu onların üzərinə gətirdi. Menaşşe zəncirlənmiş halda Babilə aparıldı.





Babildə əzab çəkərək, Menaşşe Allahı Rəbbə yalvardı.  O, atalarının Allahı qarşısında özünü təvazökarlaşdırdı və Ona dua etdi.  Daha heç bir ölü bütə dua etməyəcək!  Amma yaşayan Allah bütün etdiyi pisliklərdən sonra Menaşşeyə cavab verəcəkmi?

Bəli!  Allah padşahın duasını eşitdi və onu Yerusəlimə, taxtına, xalq üzərində padşah olmağa gətirdi.  Onda Menaşşe bildi ki, Rəbb Allahdır.



Padşah Menaşşe yeni şəxs idi.  O, oyma bütləri Allahın məbədindən götürdü və bütün yad allahları Yerusəlimdə topladı.  Onların hamısını atdı.  O, Rəbbin məbədini təmir etdi və minnətdarlıq qurbanları təqdim etdi.





Sonra o, öz xalqına İsrailin Rəbbi Allaha qulluq etmələrini əmr etdi.  Menaşşe necə də dəyişmişdi!

Menaşşe ölәndә onun öz oğlu Amon bütlәrә ibadәt etmәyә döndü.  Amma o, özünü Menaşşe kimi Rәbb qarşısında alçaltmadı.  Amon daha çox günah etdikcә, onun qulluqçuları nәhayәt onu öz evindә öldürdülәr. O yalnız iki il hökmranlıq etdi.



Növbəti padşah yalnız səkkiz yaşı olan Yoşiya idi.  O, 31 il hökmranlıq etdi və Allahın gözlərində düzgün olanı etdi.  O, yalançı ibadətlərin və yalançı allahların hamısını məhv etdi.  Sözün düzü, Yoşiya bütün bütləri
toza çevirdi.



Yaxşı padşah Yoşiya həmçinin Allahın məbədini təmizlədi və pak etdi.  Kahin zibillərin arasından Rəbbin Musaya verdiyi Qanun Kitabını tapdı.



Padşah Qanun Kitabının sözlərini eşidəndə qəmdən paltarını cırdı. Yoşiya əcdadlarının Allahının qanununa itaətsizlik edərək, nə qədər pis olduqlarını bildi.



Qadın peyğəmbər Xulda Allahın xəbərini Yoşiyaya çatdırdı. “Rəbb belə deyir: ‘Mən Yəhuda padşahının oxuduğu kitabdakı bütün sözlərə görə bu yerə və burada yaşayanların üzərinə bəla gətirəcəyəm. Çünki onlar Məni tərk etdilər’ ”. Amma Yoşiya təvazökar və itaətli olduğuna görə, bu, o ölənə qədər baş verməyəcəkdi.



Allah Öz xalqını Rəbbə döndərməkdə Yoşiyaya kömək etdi. Bir gün, döyüşdə öz ordusuna başçılıq edərkən, Yoşiya düşmənin oxundan çox pis yaralandı. Onun qulluqçuları onu döyüş arabasında Yerusəlimdəki evə götürdülər və o, orada öldü. Onun bütün xalqı yas tutdu və yaxşı padşah Yoşiya haqqında mahnı qoşdu.





Bundan qısa müddət sonra padşahlıq sona yetdi.  Amma bir gün İsrail üzərində Padşah hökmranlıq edəcək.  Onun adı PADŞAHLARIN PADŞAHI VƏ RƏBLƏRİN RƏBBİDİR. İsa Məsih ilk dəfə gələndə O, rədd edildi və çarmıxa çəkildi.  İsa Məsih yenidən gələndə O, yalnız İsrail üzərində yox, lakin bütün dünya üzərində Padşah olacaq.

# Yaxşı Padşahlar, Pis Padşahlar

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

2 Salnamələr 33-36

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir.  Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi.  Sonra İsa dirildi və Göylərə getdi!  Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**